

# GÜNDOĞAR



QƏZET 1931-Cİ İLDƏN ÇAP EDİLİR NEFTÇALA RAYON QƏZETİ 30 İYUN 2025 -Cİ İL, №6 (68080)


## MİLLİ QURTULUŞDAN - PARLAQ, ŞANLI ZƏFƏRƏ! UĞUR OLSUN, AZƏRBAYCAN!

## BU QARDAŞLIQ ƏBƏDİDİR!




19 iyun 2025-ci ildə Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə iştirak ediblər. Mərasimdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev geniş çıxış edərək bildirmişdir: "... İlk növbədə sizə Azərbaycan xalqının ən səmimi salamlarını çatdırıram. 2023-cü il fevralın 6-dakı dəhşətli zəlzələ nəticəsində həlak olmuş, həyatını itirmiş bütün bacı-qardaşlarımıza Allahdan bir daha rəhmət diləyirəm. Azərbaycan xalqı bu faciəni öz faciəsi kimi qəbul etdi. İlk gündən on minlərlə azərbaycanlı Bakıda, Azərbaycanın müxtəlif şəhərlərində insani yardım göstərmək üçün məntəqələrə gəlib öz qardaşlıq borcunu yerinə yetirməyə başlamışdır. Zəlzələdən dərhal sonra əziz qardaşımın, hörmətli Cümhurbaşqanının liderliyi ilə axtarış-xilasetmə işləri başlamış, ondan sonra yenidənqurma və inşaat işlərinə start verilmişdir. Qısa müddət ərzində on minlərlə insan yeni mənzillərlə təmin edildi. Bu, bir daha Rəcəb Tayyib Ərdoğanın öz xalqına bağlılığını, sevgisini və güclü iradəsini göstərən amildir. Eyni zamanda, bu, güclü Türkiyənin təzahürüdür. Çünki ancaq güclü dövlət qısa müddətdə bu qədər böyük yenidənqurma və inşaat işləri görə bilər... "Azərbaycan" məhəlləsinin yaradılması da çox gözəl hadisədir, burada 90-dan çox bina inşa edilib, 1200 mənzildə bizim türkiyəli bacı-qardaşlarımız yaşayacaq. Məktəb, uşaq bağçası var, mədəniyyət mərkəzinin inşası da nəzərdə tutulur. Biz yaxşı günlərdə də, ağır günlərdə də daim bir-birimizin yanındayıq, bir-birimizin gücünü artırırıq. Bu gün Türkiyə-Azərbaycan qardaşlığı, birliyi nəinki bölgəmiz üçün, dünya miqyasında önəmli amildir, təhlükəsizlik, işbirliyi, inkişaf və qardaşlıq rəmzidir..."

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyun ayının 23-də Goranboy rayonunda "Konstralab Industries" QSC-nin tikinti materialları istehsalı müəssisəsinin açılışında iştirak edib.**



Goranboy rayonunun Qazanbulaq kəndində yaradılan müəssisə gips-karton, astar və üzlük gips məhsulları istehsal edəcək. Müəssisədə il ərzində 10 milyon kvadratmetr gips-karton lövhə, 150 min ton gipsəsaslı quru qarışıqlar istehsal olunacaq. Müasir avadanlıqla təchiz olunan müəssisədə istehsal edilən məhsulların yerli bazarda satışı ilə yanaşı, bir neçə ölkəyə ixracı da nəzərdə tutulur. Burada 200 nəfər daimi işlə təmin ediləcək. İstehsal zamanı istifadə edilən əsas xammal - yerli gips daşı Azərbaycanın müxtəlif regionlarındakı yataqlardan tədarük olunacaq. Növbəti mərhələdə kalsit və perlit istehsalı xətlərinin qurulması planlaşdırılır ki, bu da məhsulların maya dəyərinin aşağı düşməsinə səbəb olacaq. Bununla yanaşı, gələcək inkişaf strategiyası çərçivəsində müəssisə fəaliyyətini genişləndirərək metal profil istehsalının təşkilini hədəfləyir. İnvestisiya dəyəri 33 milyon manat olan müəssisənin ümumi sahəsi 5 hektardır. Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən müəssisəyə 3,9 milyon manat güzəştli kredit ayrılıb. İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş investisiya təşviqi sənədi hesabına müəssisə idxal etdiyi avadanlıqlara görə 900 min manat güzəşt əldə edib. Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm layihələrin icrası ölkə iqtisadiyyatının şaxələndirilməsinə, yeni iş yerlərinin açılmasına, xüsusilə sənayenin müxtəlif sahələrinin davamlı inkişafına böyük təkan verib. Sənayeləşmə siyasətinə uyğun olaraq, ölkəmizdə müasir sənaye müəssisələri, yeni istehsal sahələri yaradılır, daxili tələbatın ödənilməsində yerli məhsulların payı artır, ixrac imkanları genişlənir. Belə müəssisələrin bölgələrdə yaradılması isə ümumilikdə regionların sosial-iqtisadi inkişafını təmin etməklə, onların iqtisadi potensialının möhkəmləndirilməsində, məşğulluğun artırılmasında da mühüm rol oynayır.

## Uğurlu gələcəyə aparan yolların daim işıqlı olsun, ey Vətən!




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Mingəçevirdə "Azərbaycan" İstilik Elektrik Stansiyasının ərazisində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib. Sonra cənab Prezident "8 Noyabr" Elektrik Stansiyasının açılış mərasimində iştirak edib. **Mərasimdə çıxış edən Prezident İlham Əliyev bildirmişdir ki, *"...Biz son 20 il ərzində Azərbaycanın energetika sistemini demək olar ki, sıfırdan qurmuşuq. Ölkəmizin müxtəlif yerlərində yeni elektrik stansiyaları qurulmuşdur, eyni zamanda, Mingəçevirdə də yenidənqurma işləri aparılmışdır. Yadınızdadır, burada baş vermiş qəza nəticəsində ölkəmizin böyük hissəsi, demək olar ki, işıqsız qalmışdı. Ondan sonra praktiki tədbirlər görülməyə başlanmış və biz qısa müddət ərzində burada böyük uğurlara nail ola bilmişik. 2018-ci ildə "Azərbaycan" İstilik Elektrik Stansiyasının yenidən qurulmasının təməli qoyuldu və 2020-ci il iyunun 25-də - düz beş il bundan əvvəl burada stansiyaya yeni həyat verilmişdir. Hazırda "Azərbaycan" Elektrik Stansiyasının generasiya gücü 1800 meqavat, "8 Noyabr" Stansiyasının gücü 1880 meqavatdır, Su Elektrik Stansiyasının gücü isə 400 meqavatdan çoxdur. Beləliklə, Azərbaycanın elektrik enerjisinin 40 faizindən çoxu Mingəçevirdə istehsal olunur və qeyd etdiyim kimi, bu, nəinki Azərbaycanın, Cənubi Qafqazın əsas energetika mərkəzidir. Bu layihənin qısa müddət ərzində icra edilməsi, - energetiklər bunu yaxşı bilirlər - rekord nəticə sayıla bilər. Çünki təxminən 2 min meqavatlıq elektrik stansiyasının inşa müddəti bir neçə il davam edir - bəlkə də üç il, dörd il, beş il, bəlkə daha da çox. Misal üçün, elə sovet dövründə Mingəçevirdə "Azərbaycan" İstilik Elektrik Stansiyasının inşası 1974-cü ildə başlamışdır və birinci blok 1981-ci ildə istismara verilmişdir. Yəni, yeddi ildən sonra 300 meqavat enerji əldə edilmişdir. Biz isə iki il ərzində təxminən 2 min meqavat enerji əldə etmişik və əlbəttə ki, bunun bir çox səbəbləri var. Təbii ki, buna burada mövcud olan energetika bazamız, təcrübəmiz, Azərbaycan energetiklərinin peşəkarlığı, bilikləri, təcrübələri və əlbəttə ki, bizim beynəlxalq tərəfdaşlarımızın da töhfəsi şərait yaratdı. Mən xüsusilə bu gün burada iştirak edən İtaliyadan və Çindən olan qonaqları salamlamaq istəyirəm. Bu stansiyanın ərsəyə gəlməsində İtaliya və Çin şirkətlərinin böyük payı var. Azərbaycan energetikləri ilə birlikdə bu gözəl işi biz qısa müddət ərzində görə bildik. Qeyd etməliyəm ki, həm İtaliya, həm Çin Azərbaycanın strateji tərəfdaşlarıdır. Strateji tərəfdaşlıq haqqında İtaliya ilə iki, Çinlə iki bəyannamə imzalanmışdır və mənim bu ölkələrə çoxsaylı səfərlərim nəticəsində bir sıra istiqamətlər üzrə çox gözəl nəticələr əldə edilmişdir. "8 Noyabr" Stansiyasının istismara verilməsi bir çox məqsədləri təmin edəcək. Qeyd etdiyim kimi, enerji sistemimizin səmərəliliyi artırılacaq, potensial, generasiya gücümüz artacaq, eyni zamanda, şərti yanacaq sərfiyyatı kəskin aşağı düşəcək və beləliklə, bu, bizə təbii qaza qənaət etmək üçün imkan yaradacaq. Çünki hər kəs yaxşı bilir ki, Azərbaycan qazına bu gün dünya bazarlarında böyük tələbat var və nə qədər biz daxildə təbii qaza qənaət etsək, ixrac imkanlarımız da bir o qədər artacaq. Beləliklə, burada şərti yanacağın sərfiyyatının az olması bizə əlavə qazanc gətirəcək. Təbii olaraq, biz təbii qazın qənaətini, eyni zamanda, bərpaolunan layihələrdə görürük və görəcəyik. Azərbaycan bu istiqamətdə də qabaqcıl ölkələr sırasındadır. İmzalanmış, icra edilən və icra ediləcək bərpaolunan enerji layihələri 2030-cu ilə qədər bizə 6500 meqavat yaşıl enerji verəcəkdir və əgər bu gün bizim ümumi generasiya gücümüz 9000 meqavatdırsa, bu, nə deməkdir, bunu hər kəs başa düşə bilər. Eyni zamanda, bizə təbii qaza qənaət etmək üçün imkanlar yaradılacaq və belə olan halda təbii qazımızın ixracı daha da artacaq..."***

# 23 İYUN - DÖVLƏT QULLUQÇULARININ PEŞƏ BAYRAMI GÜNÜDÜR!



23 iyun 2025-ci il tarixində Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Neftçala Olimpiya İdman Kompleksində "Konstitusiya və Suverenlik ili" çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı il 25 may tarixli Sərəncamı ilə təsis edilən 23 İyun Dövlət Qulluqçularının Peşə bayramına həsr olunmuş ***"Dövlətə sədaqət, Xalqa xidmət"*** adlı bayram tədbiri keçirilib.

Tədbirdən öncə Neftçala şəhərində ucaldılan Ulu Öndər Heydər Əliyevin əzəmətli abidəsi ziyarət olunub, əziz xatirəsi ehtiramla yad olunub.



Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in kollektivi, YAP Neftçala rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhər, qəsəbə və kənd İƏDN-ləri, dövlət qulluğunda çalışan rəhbər şəxslər və əməkdaşlar, veteran dövlət qulluqçuları və şəhid ailələri iştirak edib. Tədbirdə Ulu Öndər Heydər Əliyev və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad olunub və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Neftçala RİH-in başçısı Mirhəsən Seyidov tədbirdə çıxış edərək dövlət qulluqçularını peşə bayramları münasibətilə təbrik edib, onların ölkənin sosial-iqtisadi inkişafında, dövlət idarəçiliyində və vətəndaşlara göstərilən xidmətlərin təşkili sahəsində oynadığı əhəmiyyətli roldan danışıb. RİH-nin başçısı çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyev dövlət idarəetmə sistemində peşəkarlıq, vətənpərvərlik və məsuliyyət kimi keyfiyyətləri hər zaman ön planda olduğunu qeyd edirdi. Bu gün isə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar nəticəsində dövlət idarəetmə sistemində səmərəliliyin artırılması, şəffaflığın təmin olunması və peşəkar kadrların hazırlanması istiqamətində mühüm nailiyyətlər əldə olunub. Dövlət qulluqçuları isə bu islahatların əsas icraedici qüvvəsidir. Dövlət qulluğu sistemi müasir dövrün tələblərinə uyğun şəkildə yenilənməkdədir. Qeyd olunub ki, müstəqillik illərində Azərbaycanda hüquqi dövlətin qurulması, idarəetmə sisteminin təkmilləşdirilməsi, ölkənin daha yaxşı idarə olunması üçün zəruri tədbirlər görülüb, hazırda da bir çox islahatlar həyata keçirilərək yeni idarəetmə orqanlarının yaradılması və dövlət qulluğunda səmərəliliyin artırılması prosesi davam etdirilir.

Tədbirdə çıxış edən digər natiqlər - Neftçala Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Emil Cavadov, Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin Neftçala rayonu üzrə nümayəndəsi Gülər Mirzəyeva, Neftçala Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin müdiri Elsevər Əsədov, gənc dövlət qulluqçusu, Həsənabad qəsəbə İnzibati ərazi nümayəndəsinin müavini Fətəli Hüseynov, veteran dövlət qulluqçusu Fikrət Əliyev, Neftçala Rayon Statistika idarəsinin baş məsləhətçisi Gülcahan Məmmədova, rayon ziyalısı, ictimaiyyət nümayəndəsi Firdovsi Tağıyev dövlət qulluqçularını təbrik edərək onların şərəfli və məsuliyyətli peşə fəaliyyətinin ölkənin sosial-iqtisadi inkişafına verdiyi töhfədən bəhs edib, dövlət qulluğu sisteminin formalaşmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətlərindən, dövlət qulluqçularının etik davranış qaydalarından, dövlət qulluğunda gənclərin rolundan, həmçinin rayonda görülən işlərdən danışıb, göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin təşəkkür və minnətdarlıqlarını bildiriblər. Həmçinin vurğulanıb ki, müasir dövrdə dövlət qulluğunun təkmilləşdirilməsi, ictimai xidmətlərin keyfiyyətinin artırılması qarşıda duran əsas vəzifələrdəndir.





Bayram tədbiri Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin Neftçala rayon üzrə nümayəndəliyi tərəfindən hazırlanan maraqlı musiqi proqram ilə davam etdirilib.

Tədbirin sonunda dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə fərqlənən bir qrup dövlət qulluqçusu Rayon İcra Hakimiyyəti başçısının və Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının fəxri fərmanları ilə təltif olunublar.

# İYUN AYINDA İCTİMAİYYƏTLƏ GÖRÜŞLƏR...



İyun ayında Neftçala rayonunun 2-ci Mayak, Pirəbbə, Aşağı Qaramanlı, Beştalı kəndlərində səyyar görüşlər keçirilmişdir. İctimaiyyətlə görüşlərin təşkilində Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər və kənd sakinləri iştirak ediblər. Görüşlərdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların xatirəsi ehtiramla yad edilib. Əhali ilə görüşlərdə ***"Uşaq hüquq və azadlıqlarının qorunması onların rifahı və normal inkişafı üçün mühüm amildir", "Milli Qurtuluş Günü" - Azərbaycan dövlətçiliyinin xilası günüdür", "Ölkə Başçısı cənab İlham Əliyevin uğurlu xarici siyasət xətti ölkəmizin inkişafının və tərəqqisinin əsasını təşkil edir", "Rəşadətli Azərbaycan Ordusu xalqımızın güvənc və qürur mənbəyidir"*** mövzularında edilən çıxışlar iştirakçılara iyun ayının əlamətdar hadisələri haqqında ətraflı məlumat almasına kömək edib.



Görüşlərdə əhalinin səsləndirdiyi iş yerlərinə ehtiyacın olması, 2-ci Mayak kəndinə mavi yanacağın verilməsi, kənd ərazisində bankomat quraşdırılması, kəndin elektrik təsərrüfatının yenilənməsi, Yuxarı Qaramanlı- Kürqarabucaq kəndlərini birləşdirən körpünün təmir olunması, Aşağı Qaramanlı kənd orta məktəbinin təmiri, kənddaxili yolların təmiri, küçə işıqlanması, yol nişanları və digər məsələlər üzrə müvafiq tapşırıqlar verilib. Görüşlərdə Neftçala RİH-in başçısı Mirhəsən Seyidov respublikamızda, həmçinin Neftçala rayonunda həyata keçirilən yenidənqurma işləri barədə də iştirakçılara geniş məlumat verib.

Vətəndaşlar göstərilən yüksək diqqət və qayğıya, həmçinin rayon ərazisində aparılan abadlıq-quruculuq işlərinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

Məlumat üçün bildirilib ki, vətəndaşlar Neftçala Rayon İcra Hakimiyyəti ilə həm onlayn, həm də yerində görüşlər üçün yaradılan "Rəqəmsal İcra Hakimiyyəti" https://rih.gov.az portalına daxil olaraq müraciət edə bilərlər.

# 15 İYUN – MİLLİ QURTULUŞ GÜNÜDÜR!



**"Konstitusiya və Suverenlik" ili çərçivəsində Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "15 İyun Milli Qurtuluş Günü" nə həsr olunan "Qurtuluşdan Zəfərə" adlı ümumrayon tədbiri təşkil olunub. Tədbirdə Nefçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, YAP Neftçala rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələri, Vətən müharibəsi iştirakçıları və rayon ictimaiyyəti iştirak edib.**



Milli Qurtuluş Gününə həsr edilmiş tədbirdə ilk olaraq Ümummilli Lider Heydər Əliyevin Neftçala şəhərinin mərkəzində vüqarlı heykəli ziyarət edildi, əziz xatirəsi ehtiramla yad olundu. Tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Tədbirdə çıxış edən Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov 15 İyun Milli Qurtuluş Gününün Azərbaycanın müasir tarixində dönüş nöqtəsi, mühüm amil olduğunu, Ümummilli Liderin xalqın istəyi ilə hakimiyyətə qayıtmasını Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasında və ölkənin gələcək inkişafında həlledici tarixi hadisə olduğuğunu vurğulayıb. Qeyd olunub ki, məhz 1993-cü ilin 15 iyun tarixindən başlayan və xalqımızın birlik və həmrəyliyinin təcəssümü olan Milli Qurtuluş ölkədə sabitlik, dönüş və inkişaf mərhələsi kimi tarixdə qalmışdır. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qurucusu Ümummilli Lider Heydər Əliyev olan şanlı Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad etdi, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin olundu. Bununla da Ulu Öndər Heydər Əliyevin, bütün xalqımızın arzuları 27 ildən sonra həyata keçdi, Prezident İlham Əliyev ata vəsiyyətini sədaqətlə yerinə yetirdi. Qeyd olundu ki, bu gün şanlı üçrəngli bayrağımız Şuşada, Xankəndidə, Laçında və bütün işğaldan azad edilmiş rayonlarımızda dalğalanır.

**Xalqımızın qazandığı bu möhtəşəm Zəfər, bütün inkişaf və tərəqqi öz başlanğıcını məhz Milli Qurtuluş Günündən götürür.**

Tədbirdə çıxış edənlər - YAP Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev, Neftçala rayon Notariat ofisinin xüsusi notariusu Səadət Nəcəfova, Neftçala rayon Ağsaqqallar Şurasının Həsənabad qəsəbə dayaq məntəqəsinin sədri Valeh Tağıyev, Neftçala Rayon Tarix Diyarşünaslıq Muzeyinin direktoru Gülmirə Səfərova, gənc fəal Anar Güllərli Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən bəhs etdilər. Bildirildi ki, məhz Heydər Əliyevin qətiyyəti, siyasi iradəsi və müdrikliyi sayəsində Azərbaycan müstəqilliyini qoruyub saxladı, sabitlik və inkişaf yoluna qədəm qoydu. Tədbir Azərbaycan televiziyası tərəfindən hazırlanmış "Qurtuluşa doğru" sənədli filminin nümayişi ilə başa çatıb.

# 26 İYUN - AZƏRBAYCAN RESPUBLİKASININ SİLAHLI QÜVVƏLƏR GÜNÜDÜR!

***Ulu Öndər Heydər Əliyev: "Milli Ordumuz müstəqil dövlətimizin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün təminatçısıdır".***



**"Konstitusiya və Suverenlik İli" çərçivəsində Neftçala Olimpiya İdman Kompleksində Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələr Günü münasibətilə tədbir təşkil olunub.**

Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın üzvü, "Tərxis olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri Emin Həsənli, Qarabağ döyüşlərində xüsusi təyinatlı Kəşfiyyat taborunun keçmiş komandiri, ehtiyatda olan polkovnik, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuş Xətai Baxışov, Xüsusi Dövlət Mühafizə Xidmətinin "A" Xüsusi Təyinatlı Dəstəsinin keçmiş komandiri, ehtiyatda olan polkovnik, "Azərbaycan Bayrağı' ordeni ilə təltif olunmuş Hikmət Ağayev, kapitan, xüsusi təyinatlı taborun qərargah rəisi, II qrup Qarabağ əlili Şəmsəddin Qurbanov, Rayon Ağsaqqallar Şurasının üzvü, RİH-in məsul şəxsləri, hüquq-mühafizə orqanlarının, YAP Neftçala rayon təşkilatının, idarə, müəssisə və təşkilat rəhbərləri, şəhid ailələri, müharibə iştirakçıları, hərbi qulluqçular və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdən öncə şəhər mərkəzində yerləşən Ümummilli Lider Heydər Əliyevin abidəsi və Şəhidlər Abidə Kompleksi ziyarət olunub, abidə önünə gül dəstələri düzülüb, onların əziz xatirələri ehtiramla yad edilib. Tədbirdə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Dövlət Himni səsləndirilib.

Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov tədbirdə çıxış edərək tədbir iştirakçılarını, hərbçiləri Silahlı Qüvvələr Günü münasibətilə təbrik edib, bu tarixin dövlətimizin, milli ordumuzun inkişafında, formalaşmasında və milli həmrəyliyin möhkəmlənməsində rolunu qeyd edib. RİH-nin başçısı qeyd edib ki, 26 iyun 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə ilk milli ordu qurulub və bu ənənə bu gün Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müasir və güclü Azərbaycan Ordusunun timsalında davam etdirilir. Dövlətimizin hərbi gücü gündən-günə artır, ordumuz ən müasir texnika ilə təchiz olunur, əsgərlərimiz yüksək hazırlıq səviyyəsi ilə fərqlənir, vətənə sədaqətlə xidmət edir.



RİH-nin başçısı çıxışı zamanı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqdan və əldə etdiyi parlaq Zəfərdən bəhs edərək bildirib ki, bu Qələbə ölkəmizin suverenliyini və ərazi bütövlüyünü tam şəkildə təmin etməklə yanaşı, xalqımızın qürur mənbəyinə çevrilib. Vətən müharibəsi zamanı Azərbaycan Ordusu tarixə qızıl hərflərlə yazılan bir qəhrəmanlıq dastanı yaratdı. Xalq-iqtidar-ordu birliyi nəticəsində torpaqlarımız işğaldan azad olundu, tarixi ədalət bərpa edildi. Bu zəfərin memarları Azərbaycan əsgəri, zabiti və şəhidlərimiz oldu. Biz bütün şəhidlərimizin xatirəsini dərin ehtiramla yad edir, qazilərimizə can sağlığı arzulayırıq.

Tədbirdə çıxış edən - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın üzvü, "Tərxis olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri Emin Həsənli, Qarabağ döyüşlərində xüsusi təyinatlı Kəşfiyyat taborunun keçmiş komandiri, ehtiyatda olan polkovnik Xətai Baxışov, Xüsusi Dövlət Mühafizə Xidmətinin "A" Xüsusi Təyinatlı Dəstəsinin keçmiş komandiri, ehtiyatda olan polkovnik Hikmət Ağayev, kapitan, xüsusi təyinatlı taborun qərargah rəisi, II qrup Qarabağ əlili Şəmsəddin Qurbanov, Rayon Ağsaqqallar Şurasının üzvü, ehtiyatda olan hərbçi Mustafa Əliyev, Vətən Müharibəsi Qəhrəmanı, şəhid Camal İsmayılovun atası Vidadi İsmayılov ordumuzun keçdiyi şərəfli yol haqqında fikirlərini bölüşüb, Azərbaycan gəncliyinin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin önəmini vurğulayıblar. Qeyd olundu ki, bu gün Azərbaycan Ordusu regionun ən güclü ordularından biri kimi tanınır və bu hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir.

Çıxış edənlər bir daha ölkə rəhbəri, Müzəffər Ali baş Komandan İlham Əliyevə Silahlı Qüvvələrin formalaşdırılması və inkişafına göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər, "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən bu tədbirin Azərbaycan xalqının ordusuna olan sevgisini, dövlətinə və Konstitusiyasına sadiqliyini bir daha nümayiş etdirdiyini xüsusi vurğuladılar. Tədbir Şirvan-Salyan Regional Mədəniyyət İdarəsi əməkdaşlarının təqdim etdikləri vətənpərvərlik ruhunda musiqi nömrələri ilə davam edib.

# 17 İYUN - TİBB İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI GÜNÜDÜR!



Hər il iyun ayının 17-si xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 2001-ci il 4 iyun tarixli Sərəncamı ilə ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur. Məlum olduğu kimi Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri 1918-ci il iyun ayının 17-də Səhiyyə Nazirliyinin yaradılması ilə əlaqədar olub.Tarixi varislik prinsipinə söykənən, qəbul etdiyi qərar və sərəncamlarında bu varisliyi daim xatırladan Ulu Öndər Heydər Əliyev 2001-ci ildə imzaladığı Sərəncamla bir daha keçmişimizə işıq salaraq bu fədakar peşə sahiblərinin əməyini dəyərləndirmiş, "Tibb İşçilərinin Peşə Bayramı Günü" təsis edilmişdir. Tarixi mənbələrdən bəllidir ki, Xalq Cümhuriyyətinin ilk səhiyyə və sosial təminat naziri vəzifəsinə ixtisasca cərrah olan Xudadat bəy Rəfibəyli təyin edilib. Onun rəhbərliyi müddətində dövlət hesabına pulsuz xəstəxanalar açılıb, yeni tibb ocaqlarının və laboratoriyaların tikintisinə başlanılıb.Yoluxucu xəstəliklərə qarşı mübarizə tədbirləri görülüb. Azərbaycanın səhiyyə işçiləri bütün dövrlərdə tibbi xidmətin səviyyəsini yaxşılaşdırmağa səy göstəriblər. Onlardan Əziz Əliyev, Zərifə Əliyeva, Mirməmməd Cavadzadə, Tamerlan Əliyev, Böyükkişi Ağayev, Adilə Namazova, İbrahim Topçubaşov kimi tanınmış alimlər Azərbaycan tibb elminə əvəzsiz töhfələr veriblər.

Azərbaycan səhiyyəsinin ötən əsrin 70-ci illərindən sonrakı inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ümummilli Liderin hakimiyyəti dövrlərində daha böyük tibb müəssisələri inşa edilib. Yalnız paytaxtda deyil, regionlarda da çoxprofilli xəstəxanalar əhalinin istifadəsinə verilib. İxtisaslı kadrların hazırlanması vacib amil olub. Sonrakı illərdə də bu təcrübə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti, gərgin zəhməti sayəsində davam etmişdir, ölkəmizdə bütün sahələrdə dinamik inkişaf diqqəti çəkməkdədir. Müasir dövrün tələblərinə uyğun olaraq, milli səhiyyə sistemində də mütərəqqi idarəetmə texnologiyalarının tətbiqi, innovativ layihələrin reallaşması, yüksək İKT tətbiqlərin istifadəsi ilə səhiyyənin rəqəmsallaşdırılması, uğurlu menecment sisteminin istifadəsi sahəsində müxtəlifyönümlü işlər icra olunur. Bu sahədə Heydər Əliyev Fondu və onun rəhbəri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da böyük xidmətəri danılmazdır. Birinci vitse-prezidentin təşəbbüsü ilə səhiyyənin ən çətin problemlərinin həlli üçün icra edilən proqramlar əhalinin, xüsusən də gənc nəslin sağlamlığının qorunmasında mühüm rol oynayır.

Tibb İşçilərinin Peşə Bayramı münasibətilə 17 iyun 2025-ci il tarixdə Neftçala Rayon İcra Hakimiyyətinin dəstəyi və Neftçala Rayon Mərkəzi Xəstəxanası PHŞ-nin təşkilatçılığı ilə Neftçala Olimpiya İdman Kompleksində tədbir keçirilib.Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, Rayon İcra Hakimiyyətinin məsul şəxsləri, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Cəlilabad Regional filialının rəhbəri İlqar Qurbanov, YAP Neftçala rayon təşkilatının və hüquq-mühafizə orqanlarının rəhbərləri, xəstəxanada çalışan şəhid ailə üzvləri, səhiyyə müəssisələrinin rəhbərləri, ictimaiyyət nümayəndələri, tibb işçiləri iştirak ediblər.

Bayram tədbirində Neftçala Rayon Mərkəzi Xəstəxanası PHŞ-nin direktoru Elman Quliyev qonaqları salamlayıb, onların iştirakını tibbi sahədə çalışan və öz peşəsinə sədaqəti ilə seçilən həkimlərin əməyinə verilən yüksək qiymət kimi dəyərləndirib. Hər il ölkə səhiyyəsində qazanılan yeni-yeni uğurlardan söz açıb və əldə olunan nailiyyətlərə, diqqət və qayğıya görə tibb kollektivi adından ölkə Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin təşəkkür və minnətdarlığını bildirib.

Tədbirdə çıxış edən Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov fədakar tibb işçilərini peşə bayramları münasibətilə təbrik edib. Qeyd edib ki, Ulu Öndərin həyata keçirdiyi islahatları uğurla davam etdirən cənab Prezident İlham Əliyevin diqqət və qayğısı ilə təkcə paytaxt Bakıda deyil, bölgələrdə də müasir tibb mərkəzlərinin açılması, köhnə tibb ocaqlarının yenidən bərpa olunaraq müasir avadanlıqlarla təminatı, səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının



gücləndirilməsi və infrastrukturun yeniləndirilməsi daim diqqət mərkəzindədir. Ölkənin Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, təhsil, səhiyyə və mədəniyyətimizin qayğıkeş hamisi Mehriban xanım Əliyevanın da cəmiyyətimizin həssas təbəqələrinə, o cümlədən diabetli, talassemiyalı xəstələrə göstərdiyi qayğı və diqqət, onların müalicəsinin təşkilində, qanvermə aksiyalarının keçirilməsində, ana və uşaqların sağlamlığının qorunması sahələrində gördüyü əvəzsiz xidmətləri səhiyyə sahəsinin davamlı inkişafını şərtləndirən amillərdən biridir. Vətəndaşların sağlamlığı naminə fədakarcasına xidmət göstərən tibb işçilərinin fəaliyyətini əsl humanist missiya adlandıran RİH-nin başçısı onların əməyini yüksək qiymətləndirərək onlara gələcək fəaliyyətlərində də uğurlar diləyib.

Tədbirdə çıxış edən Neftçala Rayon Polis Şöbəsinin rəisi Emil Cavadov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Cəlilabad Regional filialının rəhbəri İlqar Qurbanov, Səhiyyə İşçiləri Həmkarlar İttifaqının Neftçala rayon Şurasının sədri Nəcibə Abdullayeva, Təcili tibbi yardım şöbəsinin müdiri Füzuli Mehdiyev, veteran həkim Çingiz Dadaşov ölkəmizdə tibb sahəsində aparılan islahatların əhəmiyyətindən, bu sahədə yaradılan şəraitdən və inkişafın əhəmiyyətdin söz açaraq minnətdarlıqlarını bildiriblər. Çıxışlardan sonra iş fəaliyyətində fərqlənən və əhalinin sağlamlığının qorunmasında göstərdikləri səmərəli fəaliyyətlərinə görə bir qrup tibb işçilərinə Neftçala Rayon İcra Hakimiyyəti başçısının və Neftçala Rayon Mərkəzi Xəstəxanası PHŞ-nin fəxri fərmanları və hədiyyələri təqdim olunub.

# Kənd təsərrüfatının inkişafı daim diqqətdədir



Respublikanın bölgələrində olduğu kimi Neftçala rayonunda da arpa biçini yüksək məhsuldarlıqla davam edir. Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, Yuxarı Qaramanlı kəndində fermerlərin, Neftçala Dövlət Aqrar İnkişaf Mərkəzinin, Neftçala Su Meliorasiya Sistemlərinin İstismarı idarəsinin, "Aqroservis" Açıq Səhmdar Cəmiyyətinin Sabirabad Regional Nümayəndəliyinin Neftçala rayon bölməsinin rəhbərinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə fermer, Mütəllimov Əliağa Əvəz oğlunun becərdiyi taxıl sahəsində biçinin gedişi ilə tanış olub, taxıl sahəsinə baxış keçirib. Fermerlə səmimi görüş zamanı, payızlıq taxıl əkini dövründə onları narahat edən məsələlər, gübrə təminatı, əkin subsidiyalarının, əkin suyunun vaxtında verilməsi, kənd təsərrüfatı texnikaları ilə təminat məsələləri Neftçala Rayon İcra Hakimiyyəti başçısı tərəfindən ətraflı şəkildə öyrənilmiş, qarşılıqlı fikir mübadiləsi aparılmış, fermerləri maraqlandıran suallar cavablandırılmışdır. Taxıl biçininin vaxtında və itkisiz başa çatdırılması üçün Neftçala rayonuna 97 kombayn cəlb edilmiş, "Aqroservis" ASC-i tərəfindən 34 ədəd, fiziki və hüquqi şəxslər tərəfindən 63 ədəd kombayn dislokasiya edilmişdir. Arpa biçininin ilk başlandığı rayonlardan biri olan Neftçala rayonunda, 2024-2025-ci ilin payızlıq əkin dövründə ümumilikdə 32706 hektar sahədə taxıl əkilmiş, bundan 6088 hektar sahəni buğda, 26618 hektar sahəni isə arpa bitkisi təşkil edir. Hazırda rayon üzrə 20100 hektar sahədən 53667 ton arpa biçilmiş, orta məhsuldarlıq 26,7 sentner təşkil etmişdir. Xeyirli olsun.



***Maraqlı məlumatlar: "Arpa dənli bitkilərdən biridir. Arpa, balqabaq və xurma peyğəmbərlər yeməyi sayılmış və bu üç nemətin hər birinin çox zəngin bir tərkibi var. Bizlər hal - hazırda buğdanı arpadan dəfələrlə çox istifadə edirik. Nəzərə alaq ki, günümüzdə buğdaların geni çox dəyişilibdir və calaq olunubdur. Keçmişdə insanların istifadə etdikləri bərk növ buğda indi dəyirmanlarda daha rahat üyüdülə bilsin deyə yumuşaq buğdaya çevrilib. Amma arpa haqqında bunları demək olmaz. Çünki arpada o qədər dəyişiklik olmayıb və arpanın tərkibi olduğu kimi qalıb. Və nəzərə alsaq ki, arpanın tərkibi buğdanın tərkibindən də zəngindir, o zaman arpayla müalicəyə üstünlük verməliyik..." - Füzuli Hüseynov, həkim-fitoterapevt***

# Su təsərrüfatı və meliorasiya işçiləri günü qeyd olundu



Neftçala Rayon İcra Hakimiyyətinin və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Regional Su Meliorasiya Xidməti Publik Hüquqi Şəxs Neftçala Su Meliorasiya Sistemləri İstismarı idarəsinin birgə təşkilatçılığı ilə Neftçala şəhərində, Neftçala Su Meliorasiya Sistemləri İstismarı idarəsinin, Aşağı Muğan Meliorativ Sistemlərinin İstismarı idarəsinin əməkdaşlarının, SİB-nin Neftçala Dövlət Aqrar İnkişaf Mərkəzinin, Rayon Elektrik Şəbəkəsinin rəhbərlərinin iştirakı ilə Su təsərrüfatı və meliorasiya işçiləri günü qeyd olunub.

Tədbir iştirakçıları Neftçala şəhərində ucaldılan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət etməklə meliorasiya sahəsinin inkişafında müstəsna xidmətləri olan dahi şəxsiyyətə ehtiramlarını bildirib və önünə gül dəstələri düzüblər. Daha sonra Neftçala Şəhidlər Memorial Kompleksi ziyarət olunub, şəhidlərin xatirə lövhələrinin önünə gül dəstələri qoyulub.

Tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olmuş hərbi qulluqçuların ruhu bir dəqiqəlik sükutla yad edilib.

Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov çıxış edərək, "Su təsərrüfatı və meliorasiya işçiləri günü" münasibətilə melioratorları təbrik edib, hər zaman dövlətimiz tərəfindən meliorasiya işçilərinə diqqət və qayğı ilə yanaşıldığını, xalqımızın Ümummilli Lideri Heydər Əliyev ideyalarının Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində digər sahələrdə olduğu kimi su təsərrüfatı sektorunda da böyük uğurlar qazanılmasını, əhalinin içməli su təchizatı və əkin sahələrinin suvarma xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədi ilə genişmiqyaslı işlərin görülməsini, təxirəsalınmaz layihələrin həyata keçirilməsini yığıncaq iştirakçılarının diqqətinə çatdırıb. ***"Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik"*** sözlərini tarixə yazmış Ulu Öndər Heydər Əliyevin Azərbaycanın kənd təsərrüfatının inkişafında böyük əhəmiyyət kəsb edən meliorasiya və su təsərrüfatı kompleksinin yaradıcısı, müəllifi və təşkilatçısı olması barədə ətraflı məlumat verərək, su təsərrüfatı və meliorasiya sahəsində fədakarlıq göstərən əməkdaşlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Neftçala Su Meliorasiya Sistemləri İstismarı idarəsinin rəisi Təbriz Eyyubov çıxış edərək ilk növbədə tədbirdə iştirak edən qonaqları salamlayıb, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılovun "Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramı münasibəti ilə təbriklərini kollektivin diqqətinə çatdırıb, onlara bu çətin və şərəfli işlərində uğurlar arzu edib.

Neftçala Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru vəzifəsini icra edən Elsevər Əsədov, Neftçala Su Meliorasiya Sistemləri İstismarı idarəsində uzun illər çalışmış, təqaüdçü Elçin Əsədov və digər şəxslər çıxış edərək, 5 iyun gününün "Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramı kimi qeyd olunması barədə Prezident İlham Əliyev 14 may 2014-cü il tarixli Sərəncamının su təsərrüfatı və meliorasiya işçilərinin şərəfli əməyinə verilən yüksək dəyərin təzahüründən, meliorasiya və irriqasiya sahəsində görülən geniş miqyaslı işlərdən söhbət açaraq ətraflı məlumatlar veriblər.

Tədbirin sonunda su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyətlərinə görə fərqlənən bir qrup əməkdaşa Rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanı, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Regional Su Meliorasiya Xidməti Publik Hüquqi Şəxsin rəhbərinin təşəkkürnamələri, Neftçala Su Meliorasiya Sistemləri İstismarı idarəsinin fəxri fərmanı təqdim edilib.

# "Pambıqçılıqda mövcud vəziyyət və qarşıda duran vəzifələr"



Neftçala Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə Neftçala Dövlət Aqrar İnkişaf Mərkəzinin, Neftçala Rayon Statistika idarəsinin, Neftçala Su Meliorasiya Sistemləri İstismarı idarəsinin rəhbərlərinin, Rayon İcra Hakimiyyəti başçısının İnzibati ərazi dairəsi üzrə nümayəndələrinin, bələdiyyə sədrlərinin, rayon ərazisində xam pambıq tədarük edən pambıq şirkətlərinin yerli nümayəndələrinin, pambıqçı fermerlərin, Sudan İstifadəedənlər Birliklərinin sədrlərinin iştirakı ilə **"Pambıqçılıqda mövcud vəziyyət və qarşıda duran vəzifələr" mövzusunda** növbəti seminar-müşavirə keçirildi. Seminar-müşavirə, "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2019-cu il tarixli 897 nömrəli Fərmanının 3.2.1.-cü maddəsinə əsasən, "kənd təsərrüfatı subyektlərinin qeydiyyatı" altsistemi vasitəsilə fermerlərin, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən subyektlərin qeydiyyatının aparılması, onların fəaliyyəti üzrə tələb olunan məlumatların və sənədlərin daxil edilməsi, torpaq sahələrinin xəritələşdirilməsinin təmin edilməsi ilə bağlı pambıqçı fermerlərin, xam pambıq tədarük edən pambıq şirkətlərinin yerli nümayəndələrinin məlumatlandırılması məqsədilə təşkil olunmuşdur.

Tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olmuş hərbi qulluqçuların ruhu bir dəqiqəlik sükutla yad edildi.

Neftçala rayonu İcra Hakimiyyəti başçısının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Burcalı Ağayev, tədbiri giriş sözü ilə açaraq Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev siyasi irsinə əsaslanmış və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən respublikamızda qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının strateji sahələrindən hesab olunan pambıqçılığın inkişaf etdirilməsi ilə bağlı qəbul etdiyi müdrik qərarlar, verdiyi tapşırıq və tövsiyələr sayəsində, ölkəmizdə pambıqçılığın sürətli inkişafına qısa müddətdə əlverişli şərait yaradıldığını, respublikamızda sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsini, pambıqçılığın inkişafı ilə bağlı aparılan uğurlu siyasətin ölkəmizin bütün regionlarında olduğu kimi, Neftçala rayonunda da öz bəhrəsini verdiyini qeyd edərək bir sıra məqamları diqqətə çatdırdı.

Seminar-müşavirədə EKTİS üzərindən pambıq əkininin bəyan edilməsi ilə yanaşı torpaq sahəsinin xəritələrinin çəkilməsinin təmin olunması, su ehtiyatlarından səmərəli istifadə olunmaqla pambıq sahələrinə vegetasiya suyunun vaxtında verilməsi, rayonun su limitinin nəzərə alınaraq taxıl biçinindən sonra pambıq əkininin aparılması, fərdi qaydada pambıq əkini aparan fermerlərin maarifləndirilməsi, xam pambıq tədarük edən pambıq şirkətlərinin fermerlərlə bağlanmış pambıq müqaviləsinin şərtlərinə əməl olunması, sudan istifadə ilə bağlı müqavilə əsasında pambığın vegetasiya suyunun növbəlik prinsipinə əsasən təmin edilməsi mövzusunda geniş müzakirələr aparıldı, müvafiq təlimatlar, tövsiyələr verildi.

Neftçala Dövlət Aqrar İnkişaf Mərkəzinin direktor vəzifəsini müvəqqəti icra edən - direktor müavini Elsevər Əsədov çıxış edərək pambıq əkini həyata keçirən fermerlərin bəyan zamanı xəritələrin çəkilməsi zərurəti barədə (hüquqi və digər əsaslar), habelə xəritələrin çəkilməsi istiqamətində atılmış addımlar, xəritələrin çəkilməsi prosedura, xəritələrin çəkilməsi zamanı yarana biləcək texniki və ya digər çətinliklər, xəritələrin çəkilmədiyi halda məhsul subsidiyasının verilməsində yarana biləcək problemlər barədə pambıqçı fermerlərə ətraflı məlumat verdi.

Neftçala Su Meliorasiya Sistemləri İstismar İdarəsinin müdiri Təbriz Eyyubov, 2025-ci ildə rayon ərazisində xam pambıq tədarükü edən pambıq şirkətlərində, "Prime Cotton", "P-Aqro", "Azərpambıq ASK", "Aztəsərrüfat" MMC-i ilə bağlanmış müqavilə əsasında 1415 fermerin becərdiyi 7116 hektar pambıq əkininin suvarma suyu ilə təmin olunmasından, fərdi qaydada becərilən pambıq sahələrinin su ilə təmin edilməsindən, o cümlədən, suvarma dövründə görülən işlərdən geniş söhbət açaraq bir sıra məsələləri diqqətə çatdırdı.

"P-Aqro" MMC-nin Neftçala rayon bölməsinin müdiri Mustafa Əliyev, 2025-2026-cı ilin məhsulu üçün rayon ərazisində 335 nəfər fermerlə 1300 hektar sahədə pambıq əkini ilə bağlı müqavilə bağlandığını, bəyan olunmuş 1300 hektar torpaq sahəsində şirkət tərəfindən naturada torpaq sahələrinin xəritələrinin çəkilərək başa çatdırılmasını, vegetasiya suyunun verilməsində çətinliklərin olmamasını, fermerlə bağlanmış müqavilə şərtlərinə əsasən müvafiq tədbirlərin görülməsini diqqətə çatdıraraq, ətraflı məlumat verdi.

Seminar-müşavirədə pambıq əkini bəyan olunmuş torpaq sahələrinin xəritələşdirilməsinin təmin edilməsi ilə bağlı pambıqçı fermerlərə, xam pambıq tədarük edən pambıq şirkətlərinin yerli nümayəndələrinə müvafiq tövsiyələr verildi, xəritəçəkmə prosesi ilə bağlı sual doğuran fikirlərə aydınlıq gətirildi.

# ŞAİR, PUBLİSİST İMAMVERDİ ÖLMƏZ - 80



***Söz müqəddəsdir, bu müqəddəslikdəndir ki, əsrlərin süzgəcindən keçən qiymətli incilər bu gün də könlümüzü oxşayır, bəzən təsəlli, bəzən inam, bəzən səbir, bəzən mübarizlik, bir sözlə insanın canlıların əşrəfi olmasında əsas vasitəyə çevrilir. Onu yaşadır, ruhlandırır, kökünə bağlayır, "əmanətlərə sahib çıx"- deyir. Sözə bağlı olan insanlar isə bir başqa olur. Onlar üçün heç bir şey həyatda söz qədər qiymətli, əziz deyildir...***

Əziz yurdumuzun gündoğarında, Kür çayının sahilində doğulan, yaşayan, qəlbi vətən sevgisilə çırpınaraq onu "20 Yanvar veteranı" adına qədər aparan, dəyərli əməyi Prezident təqaüdü ilə qiymətləndirilən, AYB-nin üzvü, uzun illər Neftçala rayon Dördlər kənd məktəbində tarix fənnini tədris edən, söz çeşməsindən könüllərə su səpən, gənclərin təlim-tərbiyəsində, əsl vətəndaş kimi formalaşmasında əməyi olan, fəaliyyəti ilə daim seçilən, şeirləri, povest və esseləri ilə xatirələri nizama düzən İmamverdi Ölməz də məhz belə şairlərdəndir. Yazıçı, publisistdir. İmamverdi müəllim özünün bir şerində qeyd etdiyi kimi ***"səmalar qoynuna şeir yazan"*** şairdir. Fikri, xəyalları təlatümlü dəniz, sonsuz kainatdır. Onunla söhbət etmək hər kəs üçün maraqlıdır. Böyük bir həyat məktəbinin təcrübə açarı var əlində. Kim istərsə, bəhrələnsin... Böyük sözü hər zaman faydalıdır, dəyər bilənlər üçün. Bu il dəyərli, hörmətli şairimizin yubileyidir. Ömrünün 80 - ci dönəmində yenə qəlbi maarifçiliklə, sözlə dillənir...

**İmamverdi Ölməz - Zeynalov İmamverdi Ağaməmməd oğlu, 01 iyul 1945-ci ildə Neftçala rayonunun Dördlər kəndində anadan olmuşdur.** Ulu babaları XVIII əsrin əvvəllərində Qərbi Azərbaycandan köcüb bu ərazilərdə yurd salıblar. İmamverdi müəllim 1961-ci ildə orta məktəbi, 1963-cü ildə pedaqoji məktəbi bitirmişdir. Elə həmin ildən pedaqoji fəaliyyətə başlamış, eyni zamanda yenə təhsilini davam etdirərək 1965-1970-ci illərdə ADPİ-nun tarix fakültəsini müvəffəqiyyətlə bitirmişdir. Müəllimlik fəaliyyəti ilə yanaşı ədəbi fəaliyyətlə də məşğul olan İmamverdi Ölməz 1960-cı ildən bu günə kimi respublika mətbuatında bədii yazıları ilə çıxış edərək oxucuların böyük rəğbətini qazanmışdır.

İmamverdi Ölməzin yaradıcılığı daim dəyərləndirilmişdir. Uzun illər tanınmış söz ustaları onun yaradıcılığını izləyərək rəğbətlərini bildirmişlər. Şəxsi qovluğunda illərin xatirəsini əks etdirrən məktublar da ömrün ötən illərinin unudulmayan anlarını xatırladır. Onlardan biri də Xalq şairi Süleyman Rüstəmə aiddir. Bu səmimiyyətin kökündə elə İmamverdi müəllimin özünün insanlara münasibəti dayanır. Çünki qəlbi, zehni daim insanlara xeyirxahlıqla çırpınan, parlaq, işıqlı bir ümid işığı ilə dolu olan bu dəyərli müəllim, şair, publisist - vətənsevərdir. Vətənini, xalqını, ahılını, gəncini qəlbi ilə duyan bir söz sərrafıdır.

İmamverdi Ölməzin 80 – illik yubileyi ilində onun sonsuz söz dünyasından bir neçə şerini də oxucuların diqqətinə çatdırırıq. Müəllifin bu günə qədər çap edələn "Kölgəsiz sədalar", "Uçan mələklər, səma sevgisi", "Müsafir eşqi və mələklər", "İtkin düşmüş taleyim", "Ağ ölüm və ağ qağayılar", "Səhrada qalan sevgim", "Bizi bağışla ölüm", "Yaşamaq həsrəti" və s. kitablarında həyatın müxtəlif anlarında insan duyğularının dəyişən ritmlərini duyuruq. Şair, yazıçı təxəyyülünün ritorikası oxucunu müəllifin qeyd etdiyi kimi gah **"səmalara qanadlandırır", gah da "bu dağdan o dağa endirir"...** İmamverdi Ölməz üçün həyatda yaşamağa hər zaman ümid var. Həyat əbədi olmasa da, burda yaşadıqların bir əbədiyyət nəğməsidir. Nə zamansa çalınacaq, oxunacaq, yad ediləcək, xatırlanacaqdır".

***Yaşım ötüb, yaşa çatmaz, Düşən kirpik qaşa çatmaz, Hansı dövran başa çatmaz? Anıb gəlləm bu ocağa... -İmamverdi Ölməz***

1987-ci ildə İmamverdi Ölməzin "Azərnəşr"də, xalq şairi Süleyman Rüstəmin ön söz yazdığı "Muğanın ağsaqqalı" povesti çapdan çıxmışdır. Ümumiyyətlə, bu günə qədər İmamverdi Ölməzin 17 əsəri, şeirləri, roman, povestləri, esseləri, novellaları işıq üzü görmüşdür. İmamverdi müəllim həmçinin,1993-cü il mart ayından Yeni Azərbaycan Partiyasının üzvüdür. 1990-cı ildə 20 Yanvar faciəsinin, 1990-cı il 25 yanvar tarixində Neftçalada baş verən faciə zamanı xalq hərəkatının öncüllərindən, ən fəal iştirakçısı olmuşdur. Müstəqillik uğrunda mübarizədə iki dəfə həbs olunmuş, dəhşətli əzablara məruz qalmışdır. 20 yanvar əlili, Prezident təqaüdçüsüdür, AYB-in üzvü, respublika "20 Yanvar" Cəmiyyətinin üzvüdür. İmamverdi Ölməz nümunəvi ailəsi ilə də seçilir. Çox hörmətli ata, müdrik babadır. Kimi yaddaqalan müəllim, kimi isə əsərləri ilə qəlboxşayan söz ustası, söz sərrafı kimi tanıyır.

***İmamverdi Ölməz bu gün də yazır, yaradır. Çox hörmətli şair, nasirimiz İmamverdi Ölməzi 80 - illik yubileyi münasibətilə təbrik edirik. Ona 2025-ci ildə və hər zaman bütün doğmaları ilə birlikdə cansağlığı diləyir, daim xoş əhval - ruhiyyədə olmasını arzu edirik.***

*Bədirə Rza HƏSƏNQIZI*

## Ş E İ R L Ə R İ

**İMAMVERDİ ÖLMƏZ**

**Bahar yağışı**

Yağar üstümüzə bahar yağışı,
O selin, tufanın bəlkə özüdür.
Açan novruzgülü bir körpə yaşı,
Çiçəklər daş olan bulaq sözüdür.

Buludlar görüşür, çəkilmir duman,
Düşərək yağışa yuyunur çəmən.
Şanapipiyə də düşübdür imkan-
Qərib durnalardır bu elə gələn.

Bir ana laylası, suların səsi,
Sona bülbüllər də nəğmələr yazır.
Oxşayır torpağın bahar nəfəsi,
Xallı kəpənəklər yolların azır...

Bahar görüşündə gəlinlər, qızlar,
Onlar halay çəkir, mahnı oxuyur.
Eşqini gülə-çiçəyə yazanlar-
Şehli bənövşədən xalı toxuyur.

Nişanlı qıza da xonça gəlibdir,
Ana qarşılayır, xələt bağlayır.
Yazın ilk nəğməsi yerə enibdir,
Sular duman olub, coşub çağlayır.

Baharın gəlişi bir nur, bir çıraq,
Deyirəm cahanda küslü qalmasın.
Bürünüb yaşıla sehirli budaq,
Çiçəklər saralıb bir də solmasın.

Ölməz, Yer üzünə gəlibdir bahar,
Dünyanın hər yeri gül-çiçək olsun.
Qərq olsun Novruza ümid, arzular,
İnsanı yaşadan saf ürək olsun!

**Bir alın yazısın silmişəm indi!..**

İstərsə qış olsun, istərsə bahar,
Ümidlər həsrətin bağrını yarar,
İsti səhralardan ümmanlar axar,
Bu dağdan, o dağa dönmüşəm indi.

Ömrün mənasını köçənlər bilər,
Əcəl badəsini içənlər bilər,
Haqqın düz yolunu seçənlər bilər,
Bu dağdan o dağa gəlmişəm indi.

Səmalar qoynuna misralar yazdım,
Sanırdım dünyaya çiçəkli yazdım,
Əbədi yurdumu əlimlə qazdım,
Torpaqdan torpağa enmişəm indi.

Tufanlı gəncliyim payıza düşdü,
Dünyanın axırı fanidi, heçdi,
Sirat körpüsündən de, kimlər keçdi,
Həsrətin qədrini bilmişəm indi.

Göy çəmənlər üstə izlərəm səni,
Bütün ömrüm boyu səslərəm səni,
Qiyamətə qədər gözlərəm səni,
Bir alın yazısın silmişəm indi!..

**Şuşa dağları**

Şuşanın dağları bir igid, səngər,
Bizi döyüşlərə etdi səfərbər,
İgidlər qəlbində qalmadı kədər,
Vuruşa səslədi Şuşa dağları.

Həm tarım, kamanım, silahım oldu,
Müqəddəs yürüşlər amalım oldu,
Qələbə günümsə sabahım oldu,
Döyüşə səslədi Şuşa dağları.

Dərd çəkən gözləri qalmadı yolda,
İgid ərənlərin izləri yolda,
Alçaq, namərdləri təmizlər yol da,
Görüşə çağırdı Şuşa dağları.

O dəmir yumruqla açıldı səhər,
Çatdı xilas günü, o ulu zəfər,
Bizimlə fəxr edir, bu ali bəşər,
Gəldi o günlərin, əzəl çağları,
Görüşə səsləyir Şuşa dağları.

**Gələ bilsəydim**

Mən gələ bilsəydim dünyaya bir də,
Torpaq bədənimlə güllər əkərdim.
Min əlac tapardım qüssəyə, dərdə,
Günəşin əksini yerə çəkərdim.

Qayıda bilsəydim elə, obaya,
Xəzəri, Kür çayın yorğan seçərdim.
Arazım həsrətli, qəmli bir dünya,
Təbrizi dolanıb, yollar keçərdim.

Zühr edib aləmdə, dönüb Muğana,
O keçən illəri burda başlardım.
Səyahətə çıxıb külli cahana,
Gözəl Qarabağda min il yaşardım.

Mən dönə bilsəydim Azərbaycana,
Qibləyə, Məkkəyə səcdə edərdim.
Minnətdar olardım qədim cahana,
Ümidə, arzuma burda yetərdim.

**Sapı özümüzdən olan...**

Meşələr bəzəkli, yam-yaşıl idi,
Rahatca yaşayıb ömür sürürdü.
Çəkməzdi qüssəni, çəkməzdi dərdi,
Bu yaşıl ağaclar çöllər bəzərdi.

Dəmir peyda oldu sapı ağacdan,
O gəldi meşəyə dəyişdi həyat.
Yaşıllıq qalmadı əzəl büsatdan,
Kəsildi ağaclar, doğrandı heyhat.

Sərildi ağaclar qara torpağa,
Ahu-naləsi yüksəlib göyə.
Bir imdad olmadı gülə - yarpağa
Meşələr məhv olub düzlənsin deyə.

Sapı özümüzdən olan baltanı,
Düşmənlər necə də sipər seçdilər.
Sən mərdi, namərdi yaxından tanı,
Yaşıl ormanları kəsib biçdilər.

Fürsəti verməyək düşmənə, yada,
Canlı baltalardan qorunaq gərək.
Sinəmiz od alıb, düşsək də oda,
Bir daha birləşib yaranaq gərək.

**Təlatüm**

Hər günün öz hökmü, öz zamanı var,
Yamaca enirlər bəzən qartallar.
Qalxar səma boyu çiskin dumanlar,
Ən uca zirvədə tutacaq qərar.

Torpaq da yaşayır, səma da, göy də,
Cansızlar canlıya bəlkə can verir.
Qayıtmaq olmayır həyata bir də,
Günəş də nurunu çöllərə səpir.

Bu insan axını bir dəniz, ümman,
Ləpələr sahildə coşur, qaynayır.
Bəlkə bir dünyadır burda hər insan,
Bəşərmi yuxulu qalxıb oyanır.

Bu odlu baltanı sən çalan gecə,
Bütün yollar boyu alovlar yanır.
Demə ki, bəxtimiz dönübdür heçə.
Səmada hər zaman günəş boylanır.

Adi insanlarıq biz ki dünyada,
Bu hökmü, qərarı Yaradan verir.
Odlu ürəklərdə düşərik yada,
Həyat bir axındır gələnlər gedir.
Həyat bir axındır gələnlər gedir.



**Ehtiramla yad edirik.**
**22 İYUN XƏLİL RZA ULUTÜRKÜN anım gnüdür.**
**Ruhu şad olsun.**
**Zöhrab Pirioğlu Qəmli**

**XƏLİL RZA, ƏBƏDİSƏN!**

***Böyük vətənpərvər şair Xəlil Rza Ulutürkün Salyan torpağında ucaldılan büstünün önündə düşüncələr…***

Ömrü boyu haqq səsindən güc almısan, Xəlil Rza!
Ölməzliyin zirvəsinə ucalmısan, Xəlil Rza!

Şerimizin səmasında uca dağsan, Xəlil Rza!
Bizim sənət aləmində yenə sağsan, Xəlil Rza!

Od-alovdur baxışların, gur şimşəksən, Xəlil Rza!
Ulutürklər dünyasında bu gün təksən, Xəlil Rza!

Vulkan kimi püskürmüsən, sönməmisən, Xəlil Rza!
Əqidəndən, məsləkindən dönməmisən , Xəlil Rza!

Məzarından dön, bəri bax, Xəlil Rza, əbədisən!
Nəsillərçin ucaldılmış Qəhrəmanlıq məbədisən,
Xəlil Rza!

***Zöhrab Pirioğlu Qəmli,***
***Neftçala , Qaraqaşlı kəndi.***

# “ŞƏHİDLİKLƏ BİTƏN ÖMÜR”




**“...Yox, sən ölməmisən, hələ də varsan,**
**Azadlıq yolunda yanan mayaksan.**
**Bürünüb bayrağa sən göy üzünü,**
**Qərinələr boyu dolanacaqsan”.**
**Elçin Səlilmli**

***Şəhid ömürlər unudulmur, unudulmayacaq! Vətənimizin aydın səhəri olan bu fədakar yolun işığı cəsur oğulların əziz xatirəsi zamanla yaddaşlarda oyanacaq, “Bizi də yad edin!”- deyəcəklər. Heç sizləri unutmaq olarmı, Şəhidlər? Siz xalqımızın aydın səhəri, qan yaddaşımızın ağrılı səhifəsisiniz.***

44 gün davam edən Vətən müharibəsində tarixi zəfərimizdən sonra şəhid ömürlərə bağlı yazılan kitablar, şəhidlərə həsr edilmiş şeir və hekayələr, zəfər yolumuzu vəsf edən ədəbi nümunələr demək olar ki, bütün yazarların qələmində də, elə laylalarımızda, nəğmələrimizdə də bir daha yenidən canlandı. Azərbaycan haqq savaşında qalib idi. İllərin həsrətinə son qoyulmuşdur, artıq vətən torpaqları azad idi. Lakin istər I Qarabağ döyüşlərində şəhid olan, itkin düşən, istərsə də, Vətən müharibəsində ömrü fəda edən oğulların əziz xatirəsi demək olar ki, hər bir tədbirimizdə yenidən gündəmə gəlir, xatırlanır, onların ömür yolu könüllərin rəhmət diləyi ilə bəzənirdi. 19 May 2025 - ci ildə belə oğullardan birinin - Neftçala rayon Aşağı Surra kəndində anadan olmuş, 27 yanvar 1994-cü ildə Ağdərə uğrunda döyüşlərdə şəhid olmuş Şəhid **Rahim Əliağa oğlu Səlimovun** xatirəsinə yazılmış **“Şəhidliklə bitən ömür”** kitabının təqdimat mərasimində iştirak etdik. Kitabın müəllifi həmyerlimiz, eyni zamanda şəhid Rahim Səlimovun yaxın qohumlarından olan şair, publisist Elçin Səlimli ilə birlikdə paytaxt Bakıdan Aşağı Surra kəndinə gələn qonaqlar sırasında şair Balayar Sadiq, şair Zabil Pərviz, “Yurd” jurnalının redaktoru Zəhra Səfəralıqızı, şairə Püstə Rəvan da var idi. Tədbirin aparıcısı, həmyerlimiz şair Elnur Uğur şəhid ömürlərlə bağlı ədəbiyyatın vacibliyini, eyni zamanda bu kitabların yazılmasının əhəmiyyətini, yazıçı məsuliyyətini qeyd edərək tədbir boyu qonaqların çıxışlarına vaxt ayırdıqca sanki Vətən sevgisi bir daha könüllərdə daha gur çağlayır, gələcək nəsillərə yurd əmanətini ərməğan edirdi.



Tədbirdə çıxış edənlər - Şair Balayar Sadiq, şair Zabil Pərviz, şair Elnur Uğur, “Yurd” jurnalının redaktoru Zəhra Səfəralıqızı, şairə Püstə Rəvan, Aşağı Surra kənd kitabxanasının müdiri Gülərə Səlimli, şəhid Rahim Səlimovun yaxın qohumu, təqaüddə olan Səfalı müəllim, Vətən müharibəsi şəhidi baş leytenant Xalid Orucovun atası Saleh Orucov, şəhidin cəbhə yaldaşları, kənd ağsaqqalı Ədalət Sadıqov, Aşağı Surra kənd Folklor evinin əməkdaşları Ərəstun müəllim, şair Cəmalləddin Babayev, eyni zamanda şair Cəmaləddin Babayevin şəhid Rahim Səlimova həsr etdiyi şeiri səsləndirən Folklor evinin əməkdaşı İlhamə Quliyeva, Neftçala rayon “Gündoğar” qəzetinin baş redaktoru Bədirə Niftaliyeva vətən ucalığında əbədi parlaq ulduza çevrilən şəhidlərimizi ehtiramla yad edərək onların şərəfli yolunun ölməzliyini, vüqarını bir daha qeyd etdilər.



**Artıq tarixlərə düşüb adınız,**
**Dolub nəfəs kimi bütün qəlblərə.**
**Qələbə andınız, Vətən andınız,**
**Çilənib su kimi od ürəklərə.**
**Elçin Səlimli**

Kitabın müəllifi AYB-nin üzvi, “Qızıl Qələm” media mükafatçısı, şair, publisist Elçin Məmmədağa oğlu Səlimov (Elçin Səlimli) 20 noyabr 1960-cı ildə Nefçala rayonunun Xıllı qəsəbəsində anadan olmuşdur. Orta məktəbi 1978-ci ildə Neftçala rayonu Aşağı Surra kəndində bitirmişdir. Elə həmin il şəhərə gəlmiş və təhsilini burada davam etdirərək əvvəlcə texniki peşə məktəbini, ardınca Politexnik Texnikumunu və daha sonra indiki Azərbaycan Texniki Universitetini bitirmişdir. Uzun illər Azərenerji və Azenco ASC sistemində çalışan müəllif hal-hazırda Xəzər Media Mərkəzində fəaliyyət göstərir. İxtisası mühəndis olsa da, ədəbiyyata xüsusi marağı onu bu istiqamətdə də fəaliyyətə səsləmiş, bu günə qədər “Oğul olub doğulduğum torpağa”, “Təzə əsrin yazı gəlir”, “Miras”, “Qadın ləyaqəti”, “Ürəkdə də bahar olsa”, “Görüşünə gəlmişəm”, “Məni qınamağa dəyərmi dünya”, “Ömrün yarım əsri” kitablarının müəllifidir. Müəllifin şəhid **Rahim Səlimova həsr etdiyi “Şəhidliklə bitən ömür” kitabı** üç fəsildən ibarətdir ki, hər bir fəsildə publisistik yazılar, silsilə şeirlər, “Miras” adlı pyes oxucunu şəhidimizin həyatına daha da yaxınlaşdırır, bu nakam ömrün anlarını xatırlamağa vasitəçi olur. **Şəhid Rahim Səlimovun mövludunun 55 - ci baharında təqdim edilən “Şəhidliklə bitən ömür” kitabının** təqdimat mərasimindən sonra bütün tədbir iştirakçıları Neftçala rayon Aşağı Surra kənd məzarlığında Şəhidlərimizi ziyarət edərək xatirələrini ehtiramla yad etdilər. Ruhu şad, məkanı behişt olsun şəhid Rahim Səlimovla birlikdə bütün Vətən şəhidlərinin. Allah səbir versin əzizlərinə.

***Bədirə Rza HƏSƏNQIZI***

# *Yol hərəkəti qaydaları*



**Neftçala Rayon İcra Hakimiyyəti başçısı yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın və Şirvan-Salyan Regional Təhsil İdarəsinin Neftçala rayonu üzrə təhsil sektorunun təşkilatçılığı, Uşaq Səfirlər Məclisinin Neftçala rayonu üzrə nümayəndələrinin təşəbbüsü ilə Neftçala şəhər S.İmanov adına 1 nömrəli tam orta ümumtəhsil məktəbində “Konstitusiya və Suverenlik” ili çərçivəsində “Yol hərəkəti qaydaları” mövzusunda maarifləndirici görüş keçirilib.**

Tədbirdə xalqımızın Ümummilli lideri, Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Maarifləndirici görüşdə Neftçala Rayon İcra Hakimiyyəti başçısı yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın, Neftçala Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin məsul əməkdaşları, məktəb rəhbərliyi, Uşaq Səfirlər Məclisinin Neftçala rayonu üzrə nümayəndələri, şagirdlər və müəllimlər iştirak edib. Çıxışlarda “Yol hərəkəti haqqında” Qanunun tələbləri, nizam-intizam qaydalarına dair ətraflı məlumatlar verilib, şagirdlərin yol hərəkəti qaydalarını bilməsi üçün müəllimlərin və valideynlərin üzərinə böyük məsuliyyətin düşdüyü vurğulanıb. Eyni zamanda yol nişanları, piyadaların vəzifələri haqqında görüş iştirakçılarına geniş məlumat verilib, məktəblilərə yol keçərkən daha diqqətli olmaları tövsiyə edilib.

**Tədbir qarşılıqlı müzakirələrlə davam etdirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.**

# *NAKOTİKLƏRƏ YOX DEYƏK!*



***“Konstitusiya və Suverenlik ili” çərçivəsində Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Rayon İcra Hakimiyyəti başçısı yanında fəaliyyət göstərən Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı mübarizə üzrə Komissiya tərəfindən 26 iyun - “Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü” ilə bağlı narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində tədbir keçirilib.***

Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin, Komissiyaya daxil olan idarə, müəssisə və təşkilatların nümayəndələri, eləcə də müəllimlər, şagirdlər, gənclər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak edib. Tədbir iştirakçıları bu gün ümumbəşəri bəlaya çevrilmiş narkomanlıqla mübarizə sahəsində həyata keçirilən Dövlət siyasətindən ətraflı bəhs ediblər. Natiqlər aparılan təbliğat, maarifləndirmə işlərinin əhəmiyyətini xüsusi vurğulayaraq bu sahədə əldə edilən uğurlu nəticələri nümunə göstəriblər. Geniş fikir mübadiləsi şəraitində keçən tədbirdə iştirakçıları maraqlandıran məsələlər barədə danışılmışdır.

GÜNDOĞAR GÜNDOĞAR GÜNDOĞAR

# XƏLQİLƏ TİTRƏYƏN, XƏLQİLƏ GÜLƏN...



Həyat dedikləri bu keşməkeşdən,
Qəlbimdə, qanımda yanan atəşdən,
Gecədən, gündüzdən, aydan, günəşdən,
Bu əngin fəzadan necə əl çəkim?




**Həyatdan nakam köçən çox xalqsevərlərimiz var. Onlardan biri də könüllərdə izi əbədiləşən, sevgisi heç zaman azalmayan şair Mikayıl Müşfiqdir...**

***...Yenə o bağ olaydı, yenə yığışaraq siz***
***O bağa köçəydiniz.***
***Biz də muradımızca fələkdən kam alaydıq,***
***Sizə qonşu olaydıq.***
***Yenə o bağ olaydı, səni tez-tez görəydim,***
***Qələmə söz verəydim.***
***Hər gün bir yeni nağmə, hər gün bir yeni ilham,***
***Yazaydım səhər axşam...***

Məzuniyyətdə olduğum iyun ayının 29-da Süsən həkimin təşəbbüsü ilə gözəl şairimiz Mikayıl Müşfiqin Xızıda yerləşən xatirə muzeyini ziyarət etdik. Bu müqəddəs ocaq o qədər xoş təəssurat yaratdı ki, sanki bir anlıq zamanı geri çəkə bildik, Müşfiq evinin, ocağının qonağı olduq. Nə qədər sadə və gözəl bir məkan idi. Ətraf boşluq idi, amma bu boşluq çox qəribədir ki, insanı qəribsətmir, əksinə doğmalığı əsən mehin hənirtisində sanki uzaqlara aparırdı insanı...

Müzey bələdçisinin bildirdiyinə görə ***"Muzey 1988-ci ildə Müşfiqsevər insanlar tərəfindən inşa edilmişdir.*** **Onlardan** bir neçəsinin Polis-polkovniki Əbülhəsən Əhmədov, Tofiq Novruzovun, Cabir Novruzun, Aydın Zeynalovun, Nəbi Xəzrinin və b. adlarını qeyd etmək olar ki, onların təşəbbüsü ilə Müşfiqin 80 illik yubileyindən sonra Müşfiq ocağının yaradılması qərarına gələrək bu müqəddəs ocağı yaradırlar. ***2004-cü ildən isə rəsmi olaraq muzey statusu alıb. Muzeyin yerləşdiyi ərazidə keçmişdə Sayadlar kəndi olub. Mikayıl Müşfiqin babasının bağ evi həmin yerdə yerləşib, həmçinin su dəyirmanı da var imiş..."***

Xalqımızın sevimli şairi, yazıçı, tərcüməçi, 1934-cü ildən AYB-nin üzvü, "Azərnəşr"in redaktoru, gözəl müəllim, ömrü nakam, arzuları dil açaraq zaman-zaman misralarında dolaşan, min bir könüldə əbədi bir qəsr ucaldan şair Mikayıl Müşfiq - Mikayıl Mirzə Əbdülqadir oğlu İsmayılzadə - 5 iyun 1908-ci ildə Bakı şəhərində anadan olmuşdur. Atası dövrün tanınmış ziyalılarından biri idi. O, müəllimlik fəaliyyəti ilə yanaşı, yaradıcılıqla da məşğul olmuşdur.

Uşaq yaşlarından valideynlərini itirən Müşfiqiqin həyatı çox sıxıntılı, ağır olmuşdur. O, yaxın qohumlarının himayəsində böyümüşdür. Uşaqlıq illərinin ağır keçməsi onu çox sarsıtmışdır. Sonralar o illəri xatırlayan şair yazırdı: ***" Hələ atamın sağlığında güzaranımız ağır keçdiyi halda, lap uşaqkən anam və atam vəfat etdi. Mən bir yetim halında daşkəsən əmim və bibimin yanında qaldım. Ac, yalavac, çılpaq bir uşaqlıq keçirdim"...***

Şair Mikayıl Müşfiq ədəbiyyata bağlı bir həyat yaşamış, yazdığı misraları sankı ömrünə qənim kəsilmiş, bir istedadı boğa bilmək üçün namərd, zalım, mənfur düşmənlərin, xalqımızın böyüklüyünü qəbul edə bilməyən qaniçənlərin bəhanəsinə çevrilmişdir. Ədəbi yaradıcılığa 1926-cı ildə "Gənc işçi" qəzetində çap etdirdiyi "Bu gün" şeiri ilə başlayan böyük şair sonradan tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuşdur. Dövri mətbuatda müntəzəm çıxış etmiş, 1927-ci ildən "Maarif və mədəniyyət" və "Komsomol" jurnallarında və "Gənc işçi" qəzetində yazıları, şeirləri dərc olunmuşdur. 1930-cu ildə şairin ilk "Küləklər" adlı şeir kitabı işıq üzü görmüşdür. Kitabda müəllifin əlli üç şeiri və iki tərcüməsi toplanmışdır.

Mikayıl Müşfiqin "Şəngül, Şüngül, Məngül", "Kəndli və ilan" mənzum nağılları, "Vuruşmalar", "Qaya" poemaları, "Coğrafiya", "Məktəbli şərqisi", "Zəhra üçün" və digər şeirləri uşaqların da yaddaşında əbədi qalacaq hikmət xəzinəsidir.

Mikayıl Müşfiq yaradıcılığında bədii tərcümə fəaliyyəti də xüsusi yer tuturdu. 1930–1937-ci illərdə onun tərcümə etdiyi A. Puşkinin "Qaraçılar" (Ş. Abbasovla birgə), T. Şevçenkonun "Kobzar" (əsərin bəzi hissələri) (Əhməd Cavadla birgə), Y. Çarensin "Şeirlər", S. Marşakın "Huşsuza bax, huşsuza", M. F. Axundovun "A. S. Puşkinin ölümünə Şərq poeması" əsərləri nəşr edilmişdir. Bundan əlavə Müşfiq M. Lermontovun "Demon" poemasını (Rəsul Rza ilə birgə), "Qafqaz" (Mikayıl Rəfili ilə birgə), "Şairin ölümünə", "Tənha yelkən ağarı" şeirlərini, A. S. Puşkinin "Yevgeni Onegin" mənzum romanından "Tatyananın Onegenə məktubu"nu (R. Rza ilə birgə), "Poltava" əsərindən bir parçanı, "Dustaq" şeirini, Ömər Xəyyamın rübailərinin çox hissəsini, Firdovsinin "Şahnamə"sindən bəzi parçaları (M. Seyidzadə ilə birgə) tərcümə etmiş, gözəl mütərcim kimi oxucuların rəğbətini qazanmışdır.

Mikayıl Müşfiqin Azərbaycan poeziyasının nadir incilərindən sayılan "Oxu, tar, oxu tar", "Qal, sənə qurban", "Sənin gülüşlərin", "Maralım", "Ana", "Küləklər", "Yenə o bağ olaydı" və digər şeirlərinə bəstələnən mahnılar dinləyici alqışını, rəğbətini qazanmış, unudulmayan sənət əsərləridir.

Mikayıl Müşfiqin xatirə muzeyində əbəttə ki, zamanın ələyindən keçə bilən, sevən insanların könül evindən köçən xatirələr yer almışdı. Burada şairin müxtəlif illərdə şəkilləri, həyat yoldaşı Dilbər Axundzadə ilə olan fotoları, şeirlərindən seçilmiş beytlər var idi. Muzeydə rəy kitabı da diqqətimi çəkdi və əlbəttə ki, növbəmi gözləyərək tələsmədən dəyərli şairimizə kiçik bir xatirə məktubu yazdım. Bu doğma ocaq xalqımız tərəfindən sevilərək daim ziyarət edilir.

1937-ci ililin qara dalğası, repressiya Azərbaycan ədəbiyyatının, mədəniyyətinin görkəmli siması Mikayıl Müşfiqdən də yan keçmir. 1937 –ci ilin ağır, qara günlərində, Azərbaycan ziyalılarına vurulan nahaq damğalar, hər kəsin bildiyi kimi, Azərbaycan xalqına, onun ziyasına, işığına vurulan unudulmayacaq yara idi. O illərdə şairin evindən axtarışlar vastəsilə əldə edilən kitabları da, əlyazmaları da yandırılmışdır. Qeyd olunur ki, "...Həbs olunmuş müttəhimlərin "könüllü" surətdə yazdığı izahatlar da nəzərə alınmış və müstəntiq tərəfindən hazırlanan həmin arayışa əsasən Mikayıl Müşfiqin adına iyunun 3-də 508 nömrəli order yazılmış, cümə günü, iyun ayının 4-də isə evində həbs edilmişdir. Axtarış zamanı Türkiyədə nəşr olunmuş 14 kitab, başqa nəşrdən olan 5 kitab, türk dilində 4 müxtəlif jurnal, 6 İran nəşri, 14 foto şəkil, pasport, hərbi bilet, əlyazmalar və digər əşyalar müsadirə olunmuşdur. Əlyazmaların içində atasının da şeir divanı daxil olmaqla Müşfiqin yüzlərcə şeiri, türk-dram teatrının üçün işlədiyi mənzum dramın əlyazması, məktublar və Dilbər Axundzadənin "Dilbərnamə" yazılmış dəftəri də var idi. Müsadirə olunmuş əşyalar 13 oktyabr 1937-ci ildə yandırılıdı.

Çox ağrılı ömür yaşayan Mikayıl Müşfiqin sonuncu istintaqı 27 noyabr1937 –ci ildə olmuşdur. SSRİ Ali məhkəməsi hərbi kollegiyasının səyyar sessiyası 5 yanvar 1938-ci ildə güllələnmə qərarı çıxarır.1938-ci il yanvar ayının 5-də SSRİ Ali Məhkəməsinin 20 dəqiqəlik məhkəmə iclası Mikayıl Müşfiq haqqında güllələnmə qərarı verir. Hökm yanvarın 6-da Nargin adasında yerinə yetirilir.

İnsan taleyinə biganəliyi ilə yadda qalan SSRİ Ali Məhkəməsinin hərbi kollegiyasının 1956-cı ildə 23 may tarixli qərarına əsasən Mikayıl Müşfiqə bəraət verilmişdir.

**Ruhu şad olsun. Nə qədər ki, xalqımız var, Mikayıl Müşfiq ömrü unudulmayacaq, sevilərək yad ediləcəkdir.**

***"... Həyatdan doymayan, işdən doymayan,***
***Əfsanə sözlərə məhəl qoymayan,***
***Könlünü, gözünü verib işinə,***
***Baxıb həyatının yüksəlişinə,***
***Xalqilə titrəyən, xalqilə gülən,***
***Vətənçin yaşayan, vətənçin ölən***
***Səmimi bir insan nə bəxtiyardır!"***

***M. Müşfiq "Bəxtiyar" şerindən.***

***Bədirə Rza HƏSƏNQIZI***

## ELAN:

**Bildirilir ki, Cavadov Rasim Aşurəli oğluna 03 Noyabr 1999 -cu ildə Neftçala Rayon Hərbi Komissarlığı tərəfindən verilmiş № 034558 saylı Müharibə veteranı vəsiqəsi itmişdir. Vəsiqəni tapan şəxsdən redaksiyamıza məlumat verməsi xahiş olunur.**

## ALLAH RƏHMƏT ELƏSİN

**"Gündoğar" qəzeti Neftçala Rayon İcra Hakimiyyətinin əməkdaşı Elnur Bağırova anası Bağırova Gülxanım Baloğlan qızının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

## ALLAH RƏHMƏT ELƏSİN

**"Gündoğar" qəzeti dəyərli ziyalı, müəllim SABİR ABUZƏROVUN vəfatından kədərləndiyini bildirir, ailəsinə, bütün doğmalarına dərin hüznlə başsağlığı verir.**

**Baş redaktor**
***B.H.Niftaliyeva***

Ünvan:Neftçala şəhəri, H. Əliyev prospekti 38
VÖEN:6500044671
AZ95AIIB33080019446400258164

"Ədalət dəyərli insanların sahib olduqları ən şərəfli tacdır".
Mark Tulli Siseron

Qəzet "Gündoğar"ın redaksiyasında yığılıb, səhifələnib, "AZƏRMedia" mətbəəsində çap olunmuşdur. Tiraj:250